Onlar birlikdə xiyabanı gəzdilər. Uşaq gah qaçırdı, gah da qayıdıb anasının dizlərini qucaqlayırdı. Mədinə xanım gözlərini uşaqdan çəkmirdi. Gözləri yaşla dolurdu, sonra elə bil bu yaşlar qəlbinə axırdı. Eyni hissləri Əminə də keçirirdi. İnsan da bir-birinə belə oxşayarmı?

- Mənim adım Fərid Azad oğludur, anamın adı Elizabetdir. O, bizim dilimizi təmiz bilir, - dedi uşaq və yenidən hansısa pişiyin arxasınca qaçdı.

- Mən ixtisasca türkoloqam. Qədim hunlar barədə yazdığım kitabımı sizə bağışlayıram, - Elizabet dedi.

Axşam Azad onları restorana dəvət etdi.

- Mənə səhər dedilər ki, yerlilərimiz gəlib, sevindim, - dedi Azad.

- Mən burada bizim səfirlikdə işləyirəm.

- Mən də BDU-da tarix müəllimiyəm. Anam musiqi müəllimidir, indi təqaüddədir.

Azad düşündü ki, Əminə necə qəşəngdir. Elə bil səhər xiyabanda gördüyü yorğun, kədərli xanım deyil. İndi ziyafət paltarında o sanki nura qərq olub. Səsi də ruh oxşayır. Hardasa eşitmişdi ki, səs qəlbin əks-sədasıdır. İnsanı tanımaq istəyirsənsə, onun səsini, danışığını eşit.

Balaca Fərid masanın üstündə anasıyla atasının əllərini birləşdirirdi.

- Biz bir-birimizlə küsəndə, Fərid bizi beləcə barışdırır, - Elizabet oğlunun başını sığalladı.

- Siz hər gün dalaşırsınız. Yoruldum, sizi barışdırmaqdan, - Fərid Elizabetin əlini kənar etdi.

Restoranda royal var idi.

- Anam, bəlkə bir şey çalasan? - soruşdu Əminə.

- Xahiş edirik - Azad və Elizabet bərabər dilləndilər. Fərid əl çaldı.

Mədinə xanım uşağı öpüb royala sarı getdi. Əlacı olsaydı, ürəyini yarıb Fəridi orada gizlədərdi, qoymazdı ki, yanından yel keçsin. Çaşıb uşağa Etibar dedi.

Bir azdan Sultan Hacıbəyovun "Karvan"ının melodiyası ətrafa yayıldı. Restoranda olanlar ayağa qalxaraq əl çaldılar. Azad Mədinə xanımın əlini öpdü. Bəlkə də illərlə anasının üzündə belə təbəssüm görməmişdi Əminə.

- Allahım, bu günü çox görmə bizə, - ürəyində yalvardı Əminə. Digər tərəfdən də bu sevincdən qorxurdu...

"Fərid anasıyla atasının əllərini birləşdirirdi". Bu səhnə gözlərinin qabağından getmirdi.

- Mən Dyuk Ellinqtonun "Karvan"ını eşitmişdim. Ancaq bilmirdim ki, Azərbaycanın da belə təkrarsız "Karvanı" var, - Elizabet badəsini qaldırdı - Azərbaycanın şərəfinə.

Əminə yadına saldı ki, həmişə atasının maşınında Ella Fistceraldın ifasında dinləyirdi. Ellinqtonun "Karvan"ını. Anası isə əhval-ruhiyyəsi yaxşı olanda fortepiano arxasına keçib Sultan Hacıbəyovun "Karvan"ından bir fraqment çalırdı. Sonra da bizim xalq mahnılarımızı - "Gözəlim sənsən", "Aman ovçu", "Apardı sellər Saranı", "Küçələrə su səpmişəm"i ifa edirdi. Nədənsə bu məqamlarda Əminənin ürəyini bir izaholunmaz kədər çuğlayırdı. Nədən bizim musiqimizdə bu qədər hüzn var?

Azad hər gün onlara Macarıstanın tarixi yerlərini göstərirdi. Bu gəzinti zamanı Əminə hər şeyi unudurdu. Sadəcə, Allaha çox şükür deyirdi - bu işığa, ömrünü bürüyən bu göy qurşağına görə. Lakin özünü çox qınayırdı - bilirdi ki, bu cür sevinməyə, bu cür xoşbəxt olmağa heç bir haqqı yoxdur.

Bir dəfə də Azad onları Vyanaya apardı.

- Mən sizə Qabsburqların sarayında daimi ekspozisiyada nümayiş olunan El Qrekonun və Qoyanın əsərlərini göstərmək istəyirəm.

- Mən onları görmüşəm, siz mənsiz gedin, - dedi Elizabet.

- Yox, yox, siz getməsəniz, mən də getməyəcəm, - həyəcanını gizlədə bilmədi Əminə. O, Azadla təkbətək qalmaqdan qorxurdu, onun səsini eşitməkdən qorxurdu.

"Səni görməyim mənim üçün şirin bir işgəncədir. Səni görməmək - əzabımdır".

*Sevgim - dəmir qəfəsim*
*Qurtula bilmirəm mən bu qəfəsdən,*
*Bu sitəmdən, bu gecikmiş həvəsdən.*

*Sevgim - axır nəfəsim*
*Allahım, al məndən son nəfəsimi*
*Qoyma, şeytan aldada nəfsimi.*

Özü də bilmədi ki, düşündükləri fikirlər nədən qafiyələşdi. Əlbəttə, bu şeir deyildi. O, heç vaxt şeir yazmaq həvəsində olmamışdı. Ancaq yüksək poeziya nümunələri istər-istəməz onun yadında qalırdı.

Dünən Rabindranat Taqor xiyabanında gəzəndə onlar Füzulini, Sabiri, Hadini, Cavidi təhlil edirdilər. Hər kəs, hətta Elizabet də bu müəlliflərdən şeir söyləyirdi.

"Yavrum, quzum, adın nədir?"... deyirdi Elizabet.

Onlar Vyana sərgisinə baxanda Azad Əminəyə Qoyanın "Kapriço"sunun reproduksiyasını bağışladı. Tələsik üstünə nəsə yazdı.

Əminə onun yazdığını dərhal oxumadı, istədi tək qalanda oxusun. Sonra balaca Fərid də ona özünün, elə muzeyin döşəməsinin üstündə çəkdiyi şəkli bağışladı. O, dizüstə çöküb, dilini çıxarıb ağ albom vərəqinə nəsə çəkəndə çox gülməli görünürdü.

- Mən Fəridi həmişə muzeylərə aparanda, o, özüylə karandaşlarını və albom götürür, yəqin üreyindən rəssam olmaq keçir - Azad oğlunun başına sığal çəkdi, uşaq dənizdə bəyaz gəmi çəkmişdi. Gəminin üstünə iri hərflərlə "ATA" yazmışdı. Ancaq nədənsə, günəşi qapqara rəngdə təsvir etmişdi.

- Bə niyə günəş belə qaradır? Günəş qızılı-qırmızı rəngdə olur axı, gözəl balam, - soruşdu Əminə.

- Bə sən görmürsən hər yerdə müharibədir, bombalar partlayır. Onların tüstüsündən Günəş qaralır. Atalar gedir, ölür, analar ağlayır. Uşaqlar da ağlayır. Heç Günəş qırmızı qala bilərmi? Əminə uşağı qucaqladı. - Allah səni bütün dərdlərdən, ağrılardan hifz etsin, ömrüm-günüm - ürəyində söylədi Əminə. Düşündü ki, həyatında heç bir uşağa bala, ömrüm-günüm deməyib. İndi dedi.

Əminə Fərid çəkdiyi rəsmi çantasına qoydu, evə qayıdanda, mütləq otağının divarından asacaq.

Axşam otelə gec qayıtdılar. Əminə "Kapriço"su özüylə birgə vanna otağına apardı. İstəmədi ki, anası Azad yazdığını görsün:

"Səsin həmişə qulağımdadır. Mən hər an sənsiz darıxıram. İnanmırdım ki, mənə belə səadət bağışlanacaq - səni görmək xoşbəxtliyi. Azad."

Əminənin əlləri, ayaqları əsdi. Sanki bir burulğana düşdü. Elə bil damarlarında qanı donurdu. Gözlərini yumanda əlində iki əriyən, qana bulaşmış dondurma tutan Etibarı və ağ vərəqə qara günəş çəkmiş Fəridi gördü. Sanki 30 il bundan qabaq bilmədən etdiyi günah onun bu günahdan təmizlənməsini istəyirdi. Duş kabinasında suyu açıb, ağlamağa başladı. Bu səssiz çığırtı deyildi. Yəqin ki, foyedə televizora baxan anası onun ağlamağını eşitməz. Sonra kitabı çemodanında gizlədib aşağı düşdü. Anası hələ də televizora baxırdı.

Əminə dənizə sarı getdi. Düz suyun qırağında bir daş tapıb, üstündə əyləşdi. Fikirləşdi ki, onun ürəyindəkiləri dünyada Allahdan başqa heç kəs bilməyəcək - nə anası, nə Lətifə və Azad da heç vaxt bilməyəcək. O, qəlbindəkiləri ancaq Allaha deyəcək.

O, xeyli baxdı dənizə. Onun ləpələri ayaqlarını döyəcləyirdi. Azadın ona yaxınlaşdığını hiss etmədi. Azad əlini uzadıb, ona daşın üstündən qalxmasına kömək etdi. Əminə elə zənn etdi ki, bütün cismini alov bürüdü, əlini onun əlindən çəkdi.

- Mən istəyirəm biz gələcəyimizi düşünək. Elizabet çox yaxşı qadındır. Ancaq mən sənsiz yaşamaq istəmirəm - boğula-boğula dedi Azad.

- Sənin balan var. Onun xatirinə sən məni yaddan çıxartmalısan. Sonra da darıxırmış kimi - biz sabah Bakıya qayıdırıq, - Əminə addımlarını yeyinlətdi.

Ertəsi gün Azad özü onları aeroporta apardı. Rəngi avazımışdı, teztez siqaret çəkirdi. Ayrılanda Mədinə xanım Azadı öpdü, Əminə əl uzatdı. Və yenə də cismini alov bürüdü "Çox şükür, Allahım, mənə bu işığı bağışladın. Bu işıq mənim qalan bütün ömrümə bəs edəcək", ürəyində Allahla danışırdı Əminə.

- Biz gecikirik, Əminə, - Lətifə onu fikirlərdən ayırdı.

Maşında gedəndə:

- Anamı tək qoyma, - Əminə dedi.

- Narahat olma, hər gün ona baş çəkəcəyəm.

Əminə Lətifəylə qət etdilər ki, əməliyyat barədə anasına heç nə deməsinlər. Anası sonra bilər...

Lətifə qəmgin görünürdü. Birdən yadına düşmüş kimi:

- Bilirsən, vəkilimiz mənə zəng edib dedi ki, sənin oğurlanan kitabın barədə Avropa məhkəməsi artıq araşdırmaya başlayıb. İnanıram ki, hər şey yaxşı olacaq, - Lətifə avtomobilin qazını basdı.

Ancaq söz ver ki, əməliyyat uğurla keçsə (mən əminəm ki, uğurlu olacaq), sən başına gələnləri qələmə alarsan, yaxşımı?

- Baş üstə...

Onlar onkoloji mərkəzə çatanda cərrah həkim var-gəl edirdi. Əminəni görən kimi ətrafda olan tibb bacılarına göstəriş verdi.

- Xəstəni hazırlayın.

Müəyyən hazırlıqdan sonra Əminəni xərəyə uzatdılar. Tibb bacısı onun damarına iynə vuranda Əminənin gözünə bir an ona əl uzadan Azad göründü, bir də Etibarın əlində qan bulaşmış iki dondurma, Fəridin çəkdiyi qara Günəş. İstədi nəsə desin. Səsi çıxmadı. Uşaqlıq vaxtında olduğu kimi, səssiz hıçqırıq onu boğdu. Hər şey zülmətə qərq oldu.

*SON*

**Ədəbiyyat qəzeti.- 2017- ci il.- 20 yanvar.- S. 13.**